

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 132 (21.793)

15 iyul 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 48-ci ildönümü münasibətilə tədbir keçirilib



***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının iyulun 14-də Heydər Əliyev Muzeyində keçirdiyi tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli açıb. O, ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və milli-mənəvi yüksəlişindən danışaraq bildirib ki, Azərbaycan milli şüurunun böyük himayədarı, müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu Heydər Əliyev xalqı və dövləti üçün xidmət göstərməyi ömrünün başlıca qayəsi hesab edib, Vətənə, xalqa, dövlətə sədaqətlə və yorulmaz xidmətin müstəsna nümunəsini yaradıb.***

Qeyd olunub ki, ümummilli liderin bütün həyatı və fəaliyyəti Naxçıvanla daim sıx bağlı olub. Belə ki, Azərbaycan KP MK-nın birinci katibi işlədiyi illərdə görkəmli dövlət xadimi dəfələrlə Naxçıvana gəlib, hər səfərində sosial-iqtisadi inkişafla bağlı məsələləri araşdıraraq, muxtar respublika sənayesi və kənd təsərrüfatının aktual problemlərini diqqət mərkəzində saxlayıb, onların təcili həlli üçün müvafiq qərarlar qəbul edib və bütün zəruri addımları atıb. Nəticədə, Naxçıvan ötən əsrin 70-80-ci illərində özünün sosial-iqtisadi inkişafında sürətli yüksəliş mərhələsini yaşayıb, qısa müddətdə intensiv inkişafa nail olub. Naxçıvan Muxtar Respublikasında sənaye məhsulu istehsalının ümumi həcmi 1970-ci ilə nisbətən 1985-ci ildə 4,6 dəfə çoxalıb. 1970-1985-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafına 900 milyon manat sərmayə yatırılıb, onun orta illik həcmi 60 milyon manat təşkil edərək əvvəlki 10 ilin göstəricisindən 2,9 dəfə çox olub. Muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən 783 milyon manatlıq əsas fondlar istifadəyə verilib. Həmin illərdə muxtar respublikada tikilmiş 21 sənaye müəssisənin 16-sı iri müəssisələr idi. 1970-1985-ci illər ərzində kənd təsərrüfatının bütün əsas məhsulları üzrə əhəmiyyətli artım müşahidə olunub, əməyin fondla təchizatı 2,6 dəfə, təsərrüfatın mineral gübrələrlə təminatı 4 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlib. Naxçıvanda su təsərrüfatı problemlərinin həllinə 119 milyon manat vəsait yönəldilib, 4 böyük su anbarı, 10-a yaxın sututar tikilib istifadəyə verilib, su anbarlarının ümumi sayı 22-yə çatdırılıb.

Vurğulanıb ki, 1993-cü ildə dövlət müstəqilliyimiz məhvə sürüklənəndə də ulu öndərimiz böyük xilaskarlıq missiyası ilə Azərbaycanı bütün sınaqlardan qətiyyətlə və üzüağ çıxarıb. Bu mənada, dahi şəxsiyyətin Azərbaycanın müstəqilliyi yolunda müzəffər yürüşünün başlanğıcı olan, 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb yaratdığı, siyasi fəaliyyətlə məşğul olduğu və muxtar respublikamıza başçılıq etdiyi dövr Azərbaycanın müstəqillik tarixində xüsusi mərhələ təşkil edir. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövr muxtar respublikanın sosial-iqtisadi potensialının qorunub saxlanılmasında, ermənilərin hərbi təcavüzünün qarşısının alınmasında və muxtariyyətin hüquqi statusunun möhkəmləndirilməsində mühüm mərhələdir. 1993-cü ilin iyununda ulu öndərin ölkə rəhbərliyinə qayıdışından sonra Naxçıvanın muxtariyyət statusu daha da möhkəmləndirilib. 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyasında Naxçıvan Azərbaycan tərkibində muxtar dövlət elan edilib. 1998-ci ilin dekabrında isə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası qəbul olunub.

Diqqətə çatdırılıb ki, hazırda həm ölkəmizdə, həm də Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ümummilli liderin dövlətçilik siyasəti uğurla davam etdirilir. Bütün XX əsr boyu, əsasən, aqrar region kimi tanınan muxtar respublika ulu öndər Heydər Əliyevin banisi olduğu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində intensiv şəkildə sənayeləşən bölgəyə çevrilib. Naxçıvan hazırda müstəqillik dövründə əldə edilmiş elmi-mədəni intibahın nailiyyətlərini özündə yaşadan region kimi həm ölkəmizdə, həm də onun sərhədlərindən kənarda nüfuz qazanıb. 2018-ci il üçün Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi bu nüfuzun təzahürüdür.

Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyətindən bəhs edilən "Ən Böyük Azərbaycanlı" filmi nümayiş etdirilib, Heydər Əliyev Muzeyindəki ekspozisiyalara baxış olub.

Həmin gün Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvləri də Heydər Əliyev Muzeyini ziyarət edərək, ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlara baxıblar.

✍ **Səbuhi HƏSƏNOV**

***Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının növbəti şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov 2017-ci ilin birinci yarımilində görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar məruzə edib.***

## Şura iclasında birinci yarımilin yekunları müzakirə edilib

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsinin 48-ci ildönümü ərəfəsində keçirilən iclasda məruzəçi vurğulayıb ki, ulu öndərin 1969-cu ilin 14 iyulunda hakimiyyətə gəlişi Azərbaycanın tarixində yeni səhifə açdı. Qısa müddət ərzində ölkəmiz nəinki keçmiş SSRİ miqyasında, hətta bütün dünyada tanındı.

Bildirilib ki, 1969-cu ildən başlanan kompleks inkişaf dinamikası Azərbaycanın digər regionları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasını da öz əhatəsinə almışdı. 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı sıralarda qərar tuturdu. Ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış qərarlar bu geriliyin aradan qaldırılması və Naxçıvanın inkişaf yoluna çıxarılmasında mühüm rol oynadı.

Təşkilatın cari ilin birinci yarımilində gördüyü işlərdən danışan Qadir İbrahimov bildirib ki, cari ildə rayonda aparılan quruculuq, yaşıllaşdırma, abadlıq tədbirlərində Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının üzvləri fəallıq göstəriblər.

Vurğulanıb ki, rayon təşkilatının tərkibində fəaliyyət göstərən 55 ərazi ilk təşkilatında partiya intizamına xüsusi diqqət yetirilib, partiya sıralarına qəbul zamanı yüksək mənəvi keyfiyyətləri, siyasi bilikləri, partiya sıralarına ulu öndərin siyasi irsinə böyük məhəbbət və inamı olan vətəndaşlar qəbul edilib.

Rayon təşkilatı cari ildə gənclərlə işi daim diqqət mərkəzində saxlayıb. Gənclər Birliyi Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi ilə birlikdə müxtəlif tədbirlər həyata keçirib.

Qeyd edilib ki, 2017-ci ilin birinci yarımilində rayon təşkilatının tərkibində keyfiyyət və kəmiyyət dəyişiklikləri baş verib, partiya intizamı daha da gücləndirilib.

Hazırda rayon təşkilatının tərkibində 5489 nəfər Yeni Azərbaycan Partiyası üzvü qeydiyyatda durur ki, onlardan 2594 nəfəri qadın, 1705 nəfəri isə gəncdir. Cari ildə Yeni Azərbaycan Partiyası sıralarına 49 nəfər qəbul edilib. Onların 27 nəfəri və yaxud 55,1 faizi qadın, 42 nəfəri və yaxud 85,7 faizi isə gənclərdir.

Diqqətə çatdırılıb ki, culfa şəhəri üzrə 37, kəndlər üzrə 18 ərazi ilk təşkilatı fəaliyyət göstərir. 16 kənd ərazi ilk təşkilatı üçün müvafiq kənd mərkəzlərində iş otaqları ayrılıb. Hazırda yeni tikilən Dizə Kənd Mərkəzində də ərazi ilk təşkilatı üçün otaqlar nəzərdə tutulub.

Müzakirələrdə təşkilatın Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə, Qadınlar Şurasının sədri Xanım Tağıyeva, Bənəniyar kənd ərazi ilk təşkilatının sədri Duvangir Əhmədov çıxış ediblər.

Şura iclasında müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul olunub.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi bu gün qarşıda duran əsas vəzifələrdəndir.***

## Yeni texnologiyaların tətbiqinə diqqət artırılır

Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 2017-ci ilin birinci yarısında qeyd olunan vəzifələrin icrası diqqətdə saxlanmış, Şərur rayonunun Arpaçay və Çəmənli kəndlərinin hər birində 384 yerlik NGN tipli yeni avtomat telefon stansiyaları qurulmuş, Arpaçay kəndində poçt bölməsi yaradılmışdır. Mövcud avtomat telefon stansiyaların nömrə tutumlarının artırılması nəticəsində hesabat dövründə muxtar respublikada 1297 yeni telefon nömrəsi istismara verilmişdir.

Bu dövrdə 18 min 705 metr fiber-optik kabel xətti çəkilmiş, 2046 yeni abunəçi genişzolaqlı və sürətli internetlə təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin internet səhifəsi hazırlanmış, agentlik İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə qoşulmuşdur.

Nazirlik qeyd olunan dövrdə kadr hazırlığı məsələlərinə də xüsusi diqqət yetirmiş, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan 20 ümumi və 76 fərdi kompüter kursunda 248 dinləyici iştirak etmişdir. Həmçinin Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə təhsil alan gənclər nazirlikdə istehsalat təcrübəsi keçmişlər. Çin Xalq Respublikasının "Huawei" şirkəti tərəfindən "Naxçıvan" Universitetində "Gələcəyin İKT sahəsindəki toxumları" adlı ikinci proqram-layihənin seçim turu da keçirilmişdir. Muxtar respublikanın ali təhsil ocaqlarından 40 tələbənin qatıldığı proqram-layihə çərçivəsində komissiya üzvləri tərəfindən Çin Xalq Respublikasına istehsalat təcrübəsinə göndərilmək üçün 12 tələbə seçilmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## İçməli və suvarma su təminatının ödənilməsi sahəsində ardıcıl tədbirlər görülür

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən 2017-ci ilin 6 ayı ərzində torpaqların su təminatının yaxşılaşdırılması və münbitliyinin artırılması sahəsində həyata keçirilən tədbirlər davam etdirilmiş, su anbarlarına 278 milyon kubmetr su ehtiyatı toplanmışdır.***



Bununla yanaşı, şoranlaşmanın qarşısını almaq və suyun itkisiz çatdırılması məqsədilə 165 kilometr magistral kanal, 233 kilometr ara arxları və 19 kilometr kollektor lildən təmizlənmiş, 36 kilometr yeni suvarma boru xətti çəkilmişdir.

Mütərəqqi suvarma metodlarının tətbiqi sahəsində görülən işlərin davamı olaraq Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 400 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanmış, bu günə qədər 3 kilometr magistral boru xətti və müxtəlif diametrli borularla 26 kilometr suvarma xətti çəkilmişdir. Uzunoba Su Anbarına sugətirən kanalın 650 metr, suaparan kanalın isə 940 metr hissəsi beton panellərlə üzlənmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə çay və selovlarda 19 kilometr istiqamətləndirici bənd tikilmiş, 7 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmışdır.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilmişdir. Babək rayonunun Şıxmahmud kəndində müxtəlif diametrli borularla 35 kilometr kanalizasiya xətti, 37 kilometr içməli su xətti çəkilmiş, 1103 ev kanalizasiya şəbəkəsinə qoşulmuş və sayğac quraşdırılmışdır. Şərur rayonunda isə müxtəlif diametrli borularla 52 kilometr içməli su xətti, 10 kilometr kanalizasiya xətti çəkilmiş, 713 ev birləşməsi aparılmışdır. Layihəyə uyğun olaraq Şahbuz şəhərindəki çirkab sutəmizləyici qurğuda tikinti işləri aparılmış, Ordubad rayonunda isə 2 subartezian quyusu qazılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*Muxtar respublikamızın iqtisadiyyatında böyük yeri və çəkisi olan kənd təsərrüfatı sürətlə inkişaf edir. Artan inkişaf göstəriciləri sırasında aqrar sahənin xüsusi çəkisinin olması isə təsadüfi deyil. Çünki Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bölgələrimizdə bu sahənin inkişafı üçün son illərdə irimiqyaslı layihələr reallaşdırılıb. Bu sahədə böyük irəliləyişlərin müşahidə edildiyi bölgələrimizdən biri də Şahbuz rayonudur. Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işlər Şahbuz rayonunda da istehsal və emal sahələrinin inkişafını sürətləndirməklə yanaşı, rəqabətqabiliyyətli məhsul istehsalını artırıb.*

# Aqrar sahənin inkişaf etdirilməsi şahbuzlu torpaq mülkiyyətçilərinin sosial rifahına xidmət edir

Ərazisi, əsasən, dağlıq olan Şahbuz rayonunun özünəməxsus relyefi vardır. Mənbəyini dəniz səviyyəsindən 2500-2600 metr hündürlükdə yerləşən Biçənək aşırımından götürən Naxçıvançay rayon ərazisini tən ortaya bölür. Küküçay, Şahbuzçay isə onun iri qollarını təşkil edir. Rayon ərazisində uca dağlar, sıldırım qayalar da çoxdur – Salvartı, Camaldağ, Küküdağ, Keçəldağ, Ağdaban. Onların hər biri dəniz səviyyəsindən 3 min metrdən artıq hündürlükdə yerləşir. Rayonun kəndlərinin əksəriyyəti bu dağların ətəklərində məskənləşib.

Sovetlər dövründə, uzun illər Şahbuz kəndlərinin sosial-iqtisadi problemlərinə lazımınca diqqət yetirilməyib. Bu səbəbdən yerli sakinlərin qarşılaşdıqları çətinliklər çox olub. Yol-nəqliyyat, maşın və texnika, gübrələr, maddi dəstək sarıdan dövlətdən heç bir yardım ala bilməyən şahbuzlular bütün çətinliklərə rəğmən böyük zəhmətlər hesabına dolanışıqlarını təmin edə biliblər. Dağlıq ərazidir, burada əkib-biçmək çox çətindir deyib, bu bölgəmizi taleyin ümidinə buraxmayıblar.

Ümummilli liderimizin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra şahbuzlu zəhmət adamlarının üz tutduqları bağlı qapılar açılıb. Uzun illər yığılıb qalmış problemlərin həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Bütün bunların nəticəsidir ki, indi Şahbuz öz sosial-iqtisadi inkişaf səviyyəsi ilə aqrar sahədə öndə gedən bölgələrimizdən fərqlənmir. Əksinə, bir çox sahələrdə daha böyük irəliləyiş var, şahbuzlu təsərrüfat sahibləri – əkinçilər, heyvandarlar, arıçılar və aqrar sektorun digər sahələri üzrə fəaliyyət göstərən insanlar böyük nailiyyətlər əldə edirlər.

Hazırda rayonun bir çox kəndlərinin taxıl sahələrində ən müasir texnikaların – kombaynların, yük maşınlarının səsi gəlir. İndi biçin mövsümünün ən qızğın vaxtıdır. Ötən ilin payızında rayonda 1389 hektar sahədə taxıl əkilib. Taxıl əkilən ərazilərin 738 hektarı dəmyə, 288 hektarı sulu, 363 hektarı isə şərti sulu torpaqların payına düşüb. Bunun 1353 hektarını buğda, 36 hektarını isə arpa sahələri təşkil edib. Bu ilin yazında isə 202 hektar sahəyə arpa toxumu səpilib. Göstərilən dövlət qayğısı öz bəhrəsini verib, sahələrdə bol məhsul yetişib. Məhsuldarlığın yüksək olmasının əsas səbəblərindən biri də torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə, ümumilikdə, 243 ton 75 kiloqram həcmində müxtəlif gübrələrin verilməsi olub. Rayonun 12 yaşayış məntəqəsi, xüsusilə Türkeş, Şahbuzkənd, Şahbuz şəhərinin ətraf əraziləri taxıl əkinlərinə ən çox üstünlük verildiyi məntəqələr olub. Biçin kampaniyasının ilkin mərhələsində bu prosesə 3 ədəd kombayn cəlb edilsə də, sonrakı mərhələdə kombayn, kipvuran və taxıldaşıyan texnikaların sayının artırılacağı gözlənilir. Məhsuldarlığın indiki vəziyyəti onu deməyə əsas verir ki, bu bölgəmizin taxılçılıq sahəsində göstəriciləri yüksək olacaqdır.

Rayonda kartofçuluğun inkişafına da xüsusi diqqət yetirilir. Onu da qeyd edək ki, əvvəllər bu sahəyə o qədər də maraq göstərilməyib. Ancaq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən və icrası uğurla başa çatan, 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı" Şahbuzda bu istiqamətdə inkişafa təkan verib, proqramın icrası üçün nəzərdə tutulan müddət zamanı məhsuldarlıq qat-qat artıb, əkin sahələri genişləndirilib. Bu sahədə əldə olunan nəticələr isə rayon əhalisinin sosial rifah halının yaxşılaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Meyvə-tərəvəzçilikdə də bu ilin göstəriciləri ürəkaçandır. Davamlı dövlət qayğısından ruhlanan torpaq mülkiyyətçiləri muxtar respublika rəhbərinin müvafiq sərəncamı ilə təsdiq olunan "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın yaratdığı imkanlardan da bəhrələnərək uğurlarını artırırlar. Bu il rayonda 164 hektar sahədə tərəvəz bitkiləri əkilib, bu sahədə bol məhsul əldə edilməsi üçün bütün zəruri tədbirlər görülüb. Bundan başqa, rayon ərazisində 1 hektarda qarğıdalı, 243 hektarda paxlalı, 9 hektarda bostan bitkiləri əkilib. Heyvandarlığın inkişafında mühüm rola malik olan birillik ot bitkilərinin əkininə də xüsusi diqqət yetirilib. Belə ki, rayonun əkin sahələrinin 64 hektarında birillik ot bitkilərinə yer verilib.

Uzun illər müxtəlif əkin növləri ilə məşğul olan şahbuzlu torpaq mülkiyyətçilərindən bir neçəsi əvvəllər günəbaxan əkini ilə məşğul olanların yaxşı qazanc əldə etdiyini müşahidə edərək bu əkin növündə bacarıqlarını sınamaq qərarına gəliblər. İlk dəfə olaraq günəbaxan bitkisi əkənlərlə söhbət zamanı belə bir fikir hasil oldu ki, onlar zəhmətlərinin bəhrəsini artıqlaması ilə görəcəklərinə əmindirlər. Əkinçilərin sözlərinə görə, bu bitkinin aqrotexniki qaydada becərilməsi də xeyli asandır. Günəbaxan bitkisinin xəstəliklərə qarşı dözümlü olması da fermerləri əlavə xərclərdən qismən sığortalayır. Əlverişli hava olduqda isə sahənin suvarılmasına da ehtiyac olmur. Məhsulun satışı ilə bağlı heç bir çətinlik çəkməyəcəklərindən əmin olan torpaq adamları hər hektar günəbaxan sahəsindən on sentnerdən yuxarı məhsul götürəcəklərinə arxayındırlar. Bol məhsul isə yaxşı gəlir deməkdir. Çünki günəbaxan dənlərinin istehsalı və qablaşdırılması kiçik sahibkarlar və ailə təsərrüfatları üçün real biznes imkanı yaradır. Onu da qeyd edək ki, günəbaxan əkini sahələrinin artırılması arı ailələrindən bal tədarükünü artırmaq imkanı yaradıb. Yerli arıçılarla söhbət zamanı bildirdilər ki, bal mövsümü yaxınlaşdıqda, süfrələrin şirin nemətinin süzülməsinə qalan müddət azaldıqda bu bitkinin çiçəkləri arıların nektar toplamasına müsbət təsir edir. Bu hal günəbaxan əkinlərinə, yaxın ərazilərdə arıçılıqla məşğul olanlara əlavə imkanlar yaradacaq.

*Sərhəd və dağ rayonu olan Şahbuzda ardıcıllıqla həyata keçirilən tədbirlər, ilk növbədə, əhalinin sosial problemlərinin həllinə, güzəranının yaxşılaşmasına hədəflənib. Xoş güzəran isə yaxşı əhval-ruhiyyə, torpağa daha dərin köklərlə bağlanmaq, gələcəyə inamla baxmaq deməkdir.*

**Səbuhi HÜSEYNOV**



*Muxtar respublikamızda mövcud olan əlverişli iqtisadi mühit yeni investisiya layihələrinin reallaşdırılmasına münbit zəmin yaradıb. Böyük bir hissəsi son 10-15 il ərzində işə salınan bu müəssisələrin bəziləri yenidən qurulub, əksəriyyəti isə yeni yaradılıb. Ancaq bu müəssisələrin hamısının ümumi bir cəhəti odur ki, onlar yeni dövrün tələbləri – yüksək texnologiyaların tətbiqi ilə müasir standartlar əsasında işləməklə istehlakçılar üçün çox faydalı olan məhsullar istehsal etmək gücünə malikdirlər. Artıq muxtar respublikada yerli və idxal xammal əsasında işləyən çox sayda sənaye müəssisələri fəaliyyət göstərməkdədir.*

*İstehsal müəssisələri*

# Müştəri məmnunluğu müəssisənin başlıca hədəfidir

Ümumilikdə, bu gün Naxçıvan şəhərində 35-ə yaxın profil üzrə ixtisaslaşmış sənaye müəssisələri fəaliyyət göstərir. Onlardan biri də "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin istehsal etdiyi məhsullar 10 ildən artıqdır ki, süfrələrimizin bəzəyidir. 388 işçinin daimi işlə təmin olunduğu cəmiyyətin istehsal sahələrində 8 adda, 96 çeşiddə məhsul istehsal edilir. Burada müasir informasiya texnologiyaları geniş şəkildə tətbiq olunur. Müəssisənin əsas məqsədi müştərilərə yüksəkkeyfiyyətli xidmət göstərmək, istehlakçıları münasib və sərfəli qiymətlərə uyğun məhsullarla təmin etməkdir. "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətində müəssisənin fəaliyyətinin tənzimlənməsi, stimullaşdırılması, marketinq və satış işinin operativ, doğru şəkildə yerinə yetirilməsi, eyni zamanda idarəçiliyin düzgün, əlaqəli şəkildə həyata keçirilməsi hər zaman diqqət mərkəzindədir. Məhz bunun nəticəsidir ki, bütün struktur bölmələrinə və əməkdaşlara normal fəaliyyətləri üçün lazımi şərait yaradılıb. Hazırda burada müasir marketinq və satış metodlarından istifadə edilərək muxtar respublika ərazisində fəaliyyət göstərən bütün ticarət obyektlərinə yüksək səviyyəli xidmət göstərilir. Sifarişlərin alınması və emalı onlayn sistemlə həyata keçirilir. Əməkdaşların maarifləndirilməsi və peşəkarlıqlarının artırılması üçün mütəmadi olaraq treninqlər aparılır.

"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti məhsulların saxlanılması və satış nöqtələrinə paylanılması üçün bütün imkanlara malikdir. Müəssisədə yükgötürmə qabiliyyəti 4,5 ton olan 52 ədəd "İsuzu" və "Mitsubishi" markalı avtomobildən ibarət nəqliyyat parkı, 8100 kvadratmetr sahəsi olan müasirtipli anbarlar var. Anbarlar məhsulların saxlanılma şəraitinin optimallaşdırılması üçün soyuducu qurğularla təchiz edilib. Həmçinin müəssisə 800 ton həcmli-18 dərəcə temperaturlu müasir anbar sisteminə malikdir.

1998-ci ilədək gündəlik tələbat mallarının idxalı və satışı ilə məşğul olan müəssisə həmin il əhalinin tələbatını nəzərə alaraq yeni istehsal sahəsi – qənd sexi yaradıb. Bu gün qənd istehsalında yeni texnoloji avadanlıqlardan istifadə edərək tələbata uyğun müxtəlif çeşidli qablaşmada və çəkidə yüksəkkeyfiyyətli qənd istehsal edilir.





2005-ci ildə daha bir istehsal sahəsi yaradılıb. Burada lokum, qarğıdalı çubuqları, pop-corn istehsalı ilə yanaşı, dənli-paxlalı kənd təsərrüfatı məhsullarının emalı və qablaşdırılması da həyata keçirilir.

Dövlət dəstəyi və öz investisiyaları hesabına 2010-cu ildə yaradılan "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində isə 2 adda 78 çeşiddə məhsul istehsal olunur və hazırda burada 44 nəfər işlə təmin edilib. Cəmiyyətin yaradılmasında əsas məqsəd yerli istehsalın inkişaf etdirilməsi, əhalini yüksəkkeyfiyyətli vafli və peçenye məhsulları ilə təmin etməkdir. Müəssisə əldə etdiyi nailiyyətlərlə kifayətlənməyərək daim unikal reseptlə və yeni məhsul növlərinin hazırlanması, istehlakçılara çatdırılması istiqamətində araşdırmalar aparır.

2011-ci ildə isə "Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilərək yeni uğurlara imza atılıb. İstehsal fəaliyyətinə görə İSO-9001 keyfiyyət idarəetmə sistemi sertifikatı alıb. 48 nəfərin daimi işlə təmin olunduğu bu müəssisədə istehsal olunan quş əti və yumurta muxtar respublikanın daxili bazarının tələbatının böyük bir qismini ödəyir. "Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyəti Naxçıvan Muxtar Respublikasında ən iri quş əti istehsalçısıdır. Müəssisədə toyuq yetişdirilməsi üçün 6800 kvadratmetr sahəsi olan 5 ferma fəaliyyət göstərir. Müəssisənin ətlik toyuq yetişdirilməsi sahəsində istehsal gücü 85 min ədəd cücədir. Fermalar ən müasir texnoloji avadanlıqlarla təchiz edilib. Cücələrin yetişdirilməsində keyfiyyətli yem məhsullarından istifadə olunur. Müəssisənin kəsim üzrə istehsalat sahəsində isə toyuqların kəsimi və qablaşdırılması həyata keçirilir. Kəsim gücü saatda 1500 baş ətlik toyuqdur. İstehsal prosesi müasir tələblərə uyğun aparılır. Kəsim sahəsindəki texniki proses başa çatdıqdan sonra məhsullar sterilizə edilmiş xüsusi qablarda və paketlərdə qablaşdırılır. Qablaşdırılmış məhsullar müəssisə daxilində tikilmiş xüsusi soyuducu kameralarda dərin dondurularaq (-40°C-45°C ) mühafizə üçün (-18°C) soyuducu kameralara alınır.

"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar qəbul edilən dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərdə yaxından iştirak edir, sahibkarların qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində əməli fəaliyyətini davam etdirir. Şirkətin qazandığı uğurlar yüksək qiymətləndirilir. Buna görə ki, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Teymur Rzayev Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafındakı xidmətlərinə görə 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən fəxri diplom ilə təltif edilib.

Artıq müəssisə öz profili üzrə böyük bazar payına malikdir. "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti qazandığı uğurlarla kifayətlənməyərək istehlakçıların keyfiyyətli, dünya standartlarına uyğun və rəqabətqabiliyyətli qiymətə malik məhsullarla təmini üçün bütün imkanlardan istifadə edir.

**Ramiyyə ƏKBƏROVA**

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Naxçıvanın türk-islam mədəniyyəti abidələrindəki meandr motivinin tarixi kökləri

Azərbaycanda türk-islam mədəniyyətində IX əsrdən başlayan yüksəliş monumental sənət əsərlərinin meydana çıxmasını şərtləndirmişdir. Bu mədəniyyətə aid abidələr, xüsusilə türbələr memarlıq həllinin mükəmməlliyi, ornamental motivlərin zənginliyi ilə fərqlənir. Həmin mədəniyyət abidələri üzərindəki naxışların araşdırılması onların xalqımızın qədim tarixindən süzülüb gələn ənənələrə əsaslandığını təsdiq edir. Mədəniyyət abidələrimiz üzərindəki ornamental motivlərin hamısını bir məqaləyə sığdırmaq çətin olduğundan biz burada yalnız bəzi motivlərə yer vermək istəyirik.

Naxçıvanın türk-islam mədəniyyəti abidələrində sıx rast gələnən ornamental motivlərdən biri meandrdır. Bu motivə Naxçıvan şəhərində tikilən türk-islam mədəniyyətinin zəngin memarlıq abidələrində, Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi türbələrin xarici səthində rast gəlmək mümkündür. Möhtəşəmliyi ilə gözoxşayan Möminə xatın türbəsində meandr motivi gövdənin cənub üzündə qapıdan sağa ikinci səthin kənarlarında və stalaktitlərdə kərpicdən yığılmışdır. Bu ornament memarın özünəməxsus bacarığı sayəsində qalın və incə kərpiclərin kombinasiyası ilə meydana gəlmişdir. Meandr naxış iki sıra kərpicdən yığılmış və kərpic düzümləri bir-biri ilə svastika şəklində birləşərək mürəkkəb kompozisiya yaratmışdır. Güney səthin qalın dayağına həkk olunan bu ornament digər üzlərdə təkrar olunmamışdır. Eyni naxış motivinin bir qədər sadə forması Yusif Küseyir oğlu türbəsinin qapı olan səthində, qapının yanlarında tətbiq olunmuşdur. Biz Möminə xatın türbəsində bu motivin daha təkmil və mürəkkəb kompozisiyadan ibarət olan forması ilə rastlaşırıq. Naxçıvan memarlıq məktəbinin digər bir möhtəşəm abidəsi olan Gülüstan türbəsində, sərdabəni qülləvarı hissədən ayıran stalaktit qurşağı da əhatə edən meandr motivi işlənmişdir. Gülüstan türbəsində tətbiq edilən meandr motivi bir qədər sadəliyi, eyni zamanda ahəngdarlığı ilə fərqlənir.



*Möminə xatın türbəsində meandr motivi*

Adıçəkilən abidələr üzərində rast gəlinən meandrın tarixini araşdırdıqda görürük ki, bu motiv heç də Avropa motivi kimi deyil, sırf xalqımızın qədim mədəniyyəti ilə bağlı olan dekorativ bəzək elementidir. Tədqiqatçıların fikrinə görə, bu motiv qədim zamanlardan mövcud olmuşdur. Meandrın qədim dövr Azərbaycan dekorativ-tətbiqi sənət nümunələrində geniş yayılmasına baxmayaraq, Naxçıvanda bu tip ornament hələlik sayca azdır. Bu tip ornamentin ən qədim nümunəsi Naxçıvanın qədim dövr dulusçuluq nümunələri arasında yalnız bir örnəkdə müşahidə olunur. Qabın hazırlanma xüsusiyyətləri, üzərindəki motivlər lokal xüsusiyyətlərə malik olsa da, meandr motivinə görə o biri qablardan seçilir. Bu dəyərli tapıntı arxeoloq Vəli Baxşəliyev tərəfindən təsadüfən Şahtaxtıdan tapılmışdır. Bikonik formalı kasanın gövdəsinin yuxarı qismi paralel xətlər arasına alınmış həndəsi motivli ornamentlə naxışlanmışdır.



*Gülüstan türbəsində meandr motivi*

Naxışlar qara və qırmızı rənglə qabın sarı rəngdə boyanmış səthinə çəkilmişdir. Onlar bitişik romblar, torlu düzbucaqlılar və digər ornamentlərdən ibarətdir. Məlum olduğu kimi, polixrom boyalı keramika Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadolunu əhatə edən Orta Tunc dövrünün Boyalı qablar mədəniyyəti üçün xarakterik olmuşdur. Bu kasanın naxışlanmasında istifadə olunan torlu dördbucaqlar Təzəkənd, Yaycı və Həsənsu nekropolundan aşkar olunmuşdur. Lakin meandr motivinə bu tip qablarda ilk dəfədir ki, rast gəlinir.

Meandr motivi Azərbaycanda geniş yayılan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika (12) məmulatı üzərində geniş tətbiq edilmişdir. Tədqiqatçıların fikrinə görə, olduqca müxtəlif formalarına rast gəlinən bu motiv öz adını Türkiyənin Meandr çayının adından götürmüşdür. İlan kimi qıvrılaraq axan bu çayın adı ornamentə yunanlar tərəfindən verilmiş və dünya xalqlarının leksikonuna latıncadan keçmişdir. Buna baxmayaraq, yuxarıda göstərdiyimiz faktlar Naxçıvanın türk-islam sənətində rast gəlinən həmin ornamentin tarixi köklərinin bu ərazidə formalaşan qədim mədəniyyətlərlə bağlı olduğunu sübut edir. Çünki bu mədəniyyətlər yunan və Roma mədəniyyətindən çox-çox qədim dövrlərə aiddir.

*Şahtaxtı keramikasında meandr təsviri*



Meandr motivi, həmçinin Naxçıvanın qədim tunc əsərlərində də geniş tətbiq edilmişdir. Şahtaxtıdan, Muncuqlutəpədən, Sarıdərədən, Qızılburundan və Kolanıdan aşkar olunan bəzək əşyalarının bir qismi meandr motivi ilə naxışlanmışdır.

Araşdırmalar göstərir ki, Azərbaycanın dekorativ-tətbiqi sənət nümunələrində meandr motivi uzun müddət istifadə olunmuşdur. XIX əsrə aid xalça nümunələrində rast gəlinən meandr motivi bunu bir daha təsdiq edir.

Göründüyü kimi, Naxçıvanın türk-islam mədəniyyətində özünəməxsus yer tutan meandrın tarixi kökləri qədim dövrə aiddir. Meandr sözünün Azərbaycan dilində qarşılığı dolamaqarmaq naxışı (dolanqac) kimidir. Xalq arasında bu tip naxışa tazıqaçışı da deyilir. Türkiyə ərazisində isə bu motiv suyolu adı ilə tanınmışdır. Ehtimal ki, meandr motivi su stixiyası ilə də bağlı olmuşdur. Su motivi qədim dövr dekorativ-tətbiqi sənət nümunələrində ən çox rastlanan naxışlardan biridir. Canlılar aləmini, yaşamı simvolizə edən qiymətli elementlərdən biri kimi qədim dövr yaradıcı insanı tərəfindən stilizə edilərək müxtəlif şəkildə mədəniyyət abidələri üzərinə həkk edilmişdir. Tarixin inkişaf mərhələləri bir-birini əvəzlədikcə bu motivin də inkişafına təkan vermişdir. Əgər əvvəllər su motivi kortəbii şəkildə sadə düz xətt, dalğalı xətt şəklində təsvir edilirdisə, zamanla daha dəyişik və mürəkkəb variantları işlənməyə başlanmışdır.

Qədim dövrdən bu günümüzə kimi təsdiqlənən əsaslı fikirlərdən biri dörd ünsürlə bağlıdır. Bunlar od, su, hava və torpaqdır. İnsan üçün su təmizliyin, paklığın, saflığın, uzunömürlülüyün açarı olmuşdur. Folklor nümunələrində Makedoniyalı İsgəndərlə bağlı "dirilik suyu" ilə tanınan qiymətli bir su haqqında da danışılır. "Dirilik suyu"nun əfsanəvi olmasına baxmayaraq, insanlar hər zaman onun axtarışına çıxmışdılar. Amma bu əfsanənin özündə də bir hikmət vardır. Yəni sağlamlığın, uzunömürlülüyün açarı təmiz sudadır.

Möminə xatın türbəsinin meandr naxışında olduqca önəmli bir xüsusiyyət diqqəti cəlb edir. Burada meandr ornament çərxi-fələk rəsmlərinin birləşməsi şəklində işlənmişdir. Çərxi-fələk motivinə Naxçıvanın qədim dulusçuluq nümunələrində rast gəlinir. Bu tip ornamentin ən qədim nümunələri I Kültəpə abidəsindən aşkar olunan keramika nümunələri üzərində əks edilmişdir. Onların biri Erkən Tunc dövrünə, digəri isə Orta Tunc dövrünə aiddir.

*Kültəpədən aşkar olunan qədim təsvirlər*



Çərxi-fələk rəsmləri qədim dulusçuluq nümunələri ilə yanaşı, türk-islam mədəniyyətinə aid maddi-mədəniyyət əsərlərində də tətbiq edilmişdir. Nizami Muradoğlunun araşdırmalarına əsasən Əli sözünün çərxi-fələk formasında yazılması bu mənanı ifadə edir – dünya dövr etdikcə Əlinin də xeyir əməlləri nəsildən-nəslə yaşayacaqdır.

Svastika təsvirlərinə Gəmiqayada da rast gəlinmişdir. Dörd yerə bölünən dairə Günəşin geniş yayılmış simvollarındandır. N.Müseyibovun fikrinə görə, dörd yerə bölünmüş dairə Günəşin öz şüalarını dünyanın dörd tərəfinə yayması mənasını ifadə etmişdir. Sibir və Mərkəzi Asiya xalqlarının da inanclarında svastika ilə Günəş simvolizə olunmuşdur. B.A.Rıbakovun fikrinə görə, həmin dairə dünyanın dörd tərəfini simvolizə etmişdir. Xocalı-Gədəbəy mədəniyyətinə aid gil qablar üzərindəki insan və həyat ağacı təsvirlərinin svastika ilə tamamlanması svastika təsvirlərinin solyar işarə olduğunu deməyə imkan verir.

Araşdırmalara əsasən deyə bilərik ki, istər qədim sənət nümunələrində, istərsə də türk-islam sənətində təsvir olunan meandr ornamenti polisemantik məzmuna malik olmuş, xalqımızın inanclarını əks etdirmişdir. Müsəlman mədəniyyətinin çiçəkləndiyi dövrdə isə bu tip ornamentlərə həm də islami məzmun verilmişdir.

**Fizzə QULİYEVA**
**AMEA Naxçıvan Bölməsinin dissertantı**

## Ağbulaq İstirahət Mərkəzinin növbəti qonaqları

***İyulun 11-13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində gənclərin "Yay məktəbi" təşkil olunub.***

"Yay məktəbi"nin proqramına uyğun olaraq gənclər Naxçıvan şəhərindən Ağbulaq İstirahət Mərkəzinə yola düşüb və İstirahət Mərkəzi ilə tanış olublar. Məktəbin ilk günü gənclər stolüstü idman oyunları oynayıb, onlar arasında "Nuh yurdu" intellektual oyunu keçirilib, günün sonunda isə gənclərə aprel döyüşlərindən bəhs edən "Qarabağa doğru" sənədli filmi nümayiş olunub.

İkinci gün iştirakçılar arasında müxtəlif idman oyunları, "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib, Naxçıvan Dövlət Texniki Kollecinin "Şən və hazırcavablar" klubunun üzvlərinin hazırladığı səhnəciklər göstərilib, konsert proqramı təşkil olunub, şəhid Toğrul Məmmədova həsr olunmuş "Vətən uğrunda" sənədli filmi nümayiş etdirilib.

"Yay məktəbi"nin sonuncu günü isə gənclərin Şahbuz Dövlət Təbiət Qoruğuna gəzintisi təşkil olunub.

"Yay məktəbi"ndə Naxçıvan Dövlət Texniki Kollecində təhsil alan 60 nəfər tələbə iştirak edib.

## *"Naxçıvanı tanıyaq"* devizi altında gənclərin ekskursiyası təşkil olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisində ötən il martın 18-də muxtar respublikada turizmin inkişafı ilə bağlı keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən turizmin inkişafı ilə bağlı tədbirlər planı hazırlanıb. Həmin plana uyğun olaraq iyulun 14-də "Naxçıvanı tanıyaq" devizi altında gənclərin Duzdağ Fizioterapiya Mərkəzinə ekskursiyası təşkil olunub.

Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin əməkdaşı Tahir Məmmədli çıxış edərək bildirib ki, belə ekskursiyaların təşkilində məqsəd muxtar respublikanın tarixi abidələrinin və turizm məkanlarının tanıdılmasında, həmin məkanlar haqqında məlumatların və çəkilmiş fotoşəkillərin müxtəlif xarici dillərdə sosial şəbəkələrdə paylaşılmasında gənclərin fəallığını artırmaqdır.

Sonra Duzdağ Fizioterapiya Mərkəzinin baş həkimi Zülfiyyə Həsənova gənclərə mərkəz haqqında hərtərəfli məlumat verib. Bildirib ki, xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunub. Mərkəzə allergik və bronxial-astma xəstəliklərindən əziyyət çəkənlərlə yanaşı, çoxlu turistin gəldiyini və buranın həm müalicəvi, həm də turizm baxımından çox əhəmiyyətli bir yer olduğu qeyd edilib.

Sonra gənclər mərkəzlə yaxından tanış olub, onları maraqlandıran suallar cavablandırılıb. Ekskursiyada 30 nəfər gənc iştirak edib.

✍ **Ceyhun MƏMMƏDOV**

## "Tibbi etika və deontologiya" mövzusunda maarifləndirici tədbir keçirilib

***Naxçıvan Muxtar Respublika Xəstəxanasının iclas zalında "Tibbi etika və deontologiya" mövzusunda maarifləndirici tədbir keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva bildirib ki, əhalinin sağlamlığının qorunması dövlətin öz vətəndaşlarına göstərdiyi xüsusi qayğısından irəli gəlir. Bunun həyata keçirilməsində həkimin, onun peşəkar fəaliyyətinin və mənəvi mövqeyinin böyük rolu vardır. Buna görə də həkimlərin fəaliyyətinin səmərəliliyinin artırılması, onların ictimai etimadının yüksəldilməsi üçün etik davranış qaydalarının müəyyən olunması vacib və əhəmiyyətli məsələlərdən biridir. Bütün bunlar nəzərə alınaraq bu il iyunun 29-da Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin əmri ilə "Həkimlərin etik davranış qaydaları" təsdiq edilərək bu aydan etibarən icraya götürülüb.



Diqqətə çatdırılıb ki, bu qaydalar səhiyyə qanunvericiliyini, insan hüquqlarını, demokratik prinsipləri və ümumi etik davranışları rəhbər tutur. Odur ki, həkim öz qərar və hərəkətlərinə görə tam məsuliyyət daşıyır. Həkim öz vəzifələrini xəstənin yaşından, cinsindən, irqindən, milliyyətindən, dini əqidəsindən, sosial vəziyyətindən, siyasi baxışlarından, vətəndaşlığından və maddi vəziyyəti də daxil olmaqla başqa mənsubiyyətlərindən asılı olmayaraq yerinə yetirməlidir. Bu qaydaların tələbləri, eyni zamanda orta tibb işçilərinə də şamil olunur.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanası pulmonologiya bölməsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar həkimi Arif Rzayev, baş həkimin müalicə və profilaktika işləri üzrə müavini Ramazan Abbasov, həkim-statist Çinarə Əhmədova, travmatoloq Adil Məmmədov və başqaları çıxış ediblər. Qeyd olunub ki, həkim-xəstə münasibətləri həkimlik etikası və bioetikanın başlıca problemidir. Həkimin etibarlılığı, səmimiyyəti, vicdanla yanaşması, diqqətli olması, xeyirxahlığı, xəstəyə fərdi yanaşması, onun psixoloji xüsusiyyətlərini nəzərə alması, xəstələrin müalicəsi və diaqnostikasında kliniki və deontoloji əsaslandırması, konfidensiallığı müalicənin mühüm şərtləri sırasındadır.

Çıxışlar videogörüntülərlə müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov tədbirə yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***




# Mərcan gözlü Batabata gəlmişəm

*Elə ki yay turizm mövsümü başladı, Batabat yaylağını qonaqsız təsəvvür etmək mümkün deyil. Batabatı görmək Naxçıvana gələn hər bir turistin arzusudur. Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun yenidən qurulması Batabata gediş-gəlişi xeyli asanlaşdırıb. Mərcan gözlü Batabatı görmək həvəsi hər il məni də çəkib o yerlərə aparır.*

Dillər əzbəri olan Batabat yaylağı Şahbuz rayonunun ərazisində, Kiçik Qafqaz dağlarında yerləşir. Burada, əsasən, dağ, göl və dağ-çəmən landşaftı inkişaf edib. Batabat yaylağını dəniz səviyyəsindən, təqribən, 3100-3200 metr hündürlüyü olan "Qonaqgörməz", "Səbətkeçməz" və "Bədəldağı" adı ilə tanınan dağlar əhatə edir. Təbiətin gözəl guşələrindən biri olan Batabat yaylağı gül-çiçəkli çəmənlikləri, saf və təmiz dağ havası, meşələri, Zorbulaq, Durnalıbulaq, Uzunbulaq kimi şirin suları və "Narzan" tipli Batabat mineral suları ilə məşhurdur. Batabat yaylağının təbiəti, onun saf havası ağciyər, ürək, əsəb və bir sıra xəstəliklər üçün çox faydalıdır. Batabat gölünün mənzərəsini, "Üzən ada"nı seyr etmək isə insana başqa bir zövq verir.

### Vətənimin seyrinə çağırıram elləri

Gözəl Vətənimin bir guşəsidir Batabat. Bu yerlərin iqlimi və füsunkar mənzərələri xarici turistləri də bura cəlb edir. Cənnət görmək istəyənin seçimi elə Batabat olur. Batabatın turizm əhəmiyyətini artıran bir sıra səbəblər var. Coğrafiya üzrə fəlsəfə doktoru Nazim Bababəyli deyir ki, bitkilərin növ müxtəlifliyinə görə bu ərazi Afrika qitəsində yerləşən məşhur Atlas dağlarından sonra ikinci yerdədir. Bunun da bir neçə səbəbi var: təbii iqlim şəraitinin rəngarəngliyi, yüksəklik qurşağının mövcudluğu və landşaftın mürəkkəbliyi. Digər tərəfdən, Batabat ərazisinin yerləşdiyi Naxçıvan Muxtar Respublikası 3 geobotanik vilayətin sərhədində yerləşir.



Ərazi bu vilayətlərin müxtəlif növ bitkilərini özündə cəmləşdirir. Yəni burada həm Qafqaz, həm Kiçik Asiya, həm də ön Asiyanın bitki növlərini görə bilərik. Ərazi Zəngəzur və Dərələyəz sıra dağlarının təmas xəttində yerləşir. Zaman-zaman baş verən tektonik hərəkətlər relyefi mürəkkəbləşdirir, bu da eyni zamanda təbiətin rəngarəngliyini artırır. Geoloji quruluşun mürəkkəbliyi burada müxtəlif genetik tiplərə məxsus çoxlu mağaraların yaranmasına səbəb olub. Qədim insanların məskunlaşdığı ayrı-ayrı yerlərdə insanlar tərəfindən mağaralar-zağalar inşa edilib. Misal olaraq tarixi və təbiət abidəsi olan məşhur Fərhad evini göstərmək olar. Batabat yaylağında arxeoloji abidə kimi qeydə alınan Fərhad evi Zorbulaqdan, təqribən,1 kilometr şərqdədir. 4 otaqdan ibarət Fərhad evi buradan keçən karvan yollarına xidmət etmiş və müvəqqəti sığınacaq kimi istifadə olunmuşdur. Bununla belə, ərazidə onlarla təbii mağaralar mövcuddur ki, bu da turistlərin marağına səbəb olur. Meşə hissəsində indiyə qədər tədqiq olunmayan mağaralarda qədim insanlar məskunlaşmışlar.

Ərazidə Naxçıvan Muxtar Respublikası üçün xas olmayan meşə örtüyü formalaşıb. Bunun əsas səbəbi əlverişli hidrogeoloji şəraitin olmasıdır. Biz ətrafı diqqətlə nəzərdən keçirsək, buranın dağlarla əhatə olunduğunu və çanaqşəkilli forma yaratdığını görmüş olarıq. Bu, yeraltı suların yalnız bir yerdən – Naxçıvançay dərəsindən çıxmasına səbəb olur. Və beləliklə, yer altında zəngin su ehtiyatı toplanıb. Bunun nəticəsində meşə örtüyü formalaşıb.

Qeyd etmək lazımdır ki, meşə ağaclarının bəziləri, məsələn, Şərq palıdı, Araz palıdı endemik bitkidir. Bu ağaclar landşaft zəncirinin əsas hissəsini təşkil edir. Yəni palıdın qozaları meşədə məskunlaşan çöl donuzlarının, donuzlar isə ayıların qida zəncirinin bir halqasını təşkil edir. Burada dünyanın ən zəhərli və ən qiymətli ilanlarından olan Radde gürzəsinə rast gəlinir. Bu, quru ilanları içərisində zəhərliliyinə görə ikinci sayılır.

Təbiətin zənginliyinin digər faktoru ərazisinin ekspozisiyası ilə bağlıdır, yəni dağların səmti güneyə doğrudur. Məhz bu səbəbdən buradakı Günəş radiasiyasının miqdarı, təxminən, ekvatorda olduğu qədərdir. Günəş radiasiyasının özü turizm-rekreasiya potensialının mühüm tərkib hissəsi sayılır. Havanın təmizliyi, mütləq hündürlüyün yuxarı olması, Günəş şüalarının spektrində olan müalicəvi şüaların bolluğuna səbəb olur. Səhər və axşam saatlarında insan orqanizmi üçün faydalı olan, müalicəvi əhəmiyyət daşıyan Günəş vannaları qəbul etmək üçün olduqca əlverişlidir.

### Heç yana, heç yerə mən tələsmirəm...

Darıxmaq? Əsla. Batabata gələnlər səhər erkən saatlardan yola çıxarlar. Məqsəd həmin günü səhərdən qaş qaralanadək Batabatın füsunkar mənzərəsindən, saf havasından və ayna kimi dumduru sularından doya-doya faydalanmaqdır. Bura gələnlər özləri ilə mütləq su qabları da gətirərlər. Bu məqamda qeyd edək ki, Naxçıvan özünün təbii suları ilə dünyada tanınan bölgələrdən biridir. Muxtar respublikada 214 mineral su mənbəyi və eləcə də mindən artıq mineral bulaq vardır. Zorbulağın suyuna isə söz ola bilməz. Yayın bu qızmar çağında bumbuz suya toxunmaq, o sudan dadmaq, həm də bunu Zorbulağın gözündən içmək necə olar sizcə? Şahbuza yolu düşənlər mütləq gəlib bu dumduru bulaq suyundan qablara doldurub apararlar. Qənimət hesab edərlər. Bulaq suyu, bir də dağ havası cana məlhəmdir. Təbiətin bəxş etdiyi bu sərvətlərdən yararlanmaq məqsədilə Batabat yaylağına gələnlərin ardı-arası kəsilməz. Təbiətin seyrinə çıxan kim, şəkil çəkdirərək yaddaşa köçürən kim.

Nazim Bababəylinin sözlərinə görə, Zorbulağın adı Qırxbulaq idi. Əvvəllər ərazidə böyük bataqlıq olub. Bu bataqlıq Zorbulaq və onun ətrafında olan 40-a qədər bulaqla qidalanıb. Bataqlıq su anbarına çevrildikdən sonra həmin bulaqlar göl suyunun altında qalıb. Zorbulağa gəlincə isə bu bulağın suyu insan orqanizmi üçün olduqca faydalıdır. Əvvəla, mineral tərkibinə görə, ikinci bu sularda həll olunmuş oksigenin miqdarı həddindən artıq çox olduğuna görə. Zorbulağın suyu maqneziumlu-hidrokarbonatlı sular tipinə aiddir. Soyuq sulardakı oksigenli su içilərkən qanı həll olunmuş oksigenlə təmin edir ki, bu da olduqca faydalıdır. Bu sudan içən insan rahatlıq tapır. Zorbulaqda həll olunmuş oksigenin miqdarı 6 milliqrama çatır, bu da çox yüksək göstəricidir. Bulağın suyu vulkanogen süxurlardan sızır, bu zaman həm yüksək dərəcədə təmizlənmə baş verir, eyni zamanda su mikroelementlərlə zənginləşir. Bu da suyun yüksək keyfiyyət göstəricilərinə malik olmasını təmin edir. Qeyd olunan bu vulkanogen süxurların 26 milyon il yaşı vardır. Zorbulaq, eləcə də ərazidəki digər bulaqlar ətraf mühitin rekreasiya potensialını xeyli artırır.



Batabatda oldunsa, geri qayıtmaq haqqında düşünmürsən. Ta hava qaralıb, necə deyərlər, səni xəbərdar edənədək. Təbiət bütün cazibəsi ilə qarşındadır, ruhunu oxşayan rahatlıq səni özünə o qədər çəkir ki, geri dönməyə tələsmirsən. Məşhur "Üzən ada"nı zövqlə seyr etmədən, bu gözəl mənzərəni fotoaparatın yaddaşına köçürmədən bu yerlərdən necə ayrılmaq olar?

Batabat göllərindəki sularda olan müxtəlif mikroorqanizmlər inkişaf edərək suya yaşılımtıl rəng verir. Aşağı Batabat gölündə "Üzən ada"nın formalaşması da məhz bu amillə əlaqədardır. Əmələ gəlmiş zəngin bitki örtüyü tam çürüməyə məruz qalmadığına görə torfa çevrilir və bu torf ilbəil qalınlaşır. Torfun xüsusi çəkisi sudan yüngül olduğuna görə, o suyun üzündə qalır və suyun dibinə doğru inkişaf edir. Torf kütləsi güclü küləklərin təsiri ilə öz yerini tez-tez dəyişir və bu səbəbdən də "Üzən ada" adlanır. Bunun özü də gölə ekzotik görünüş verir.

### Hər gülə, çiçəyə salam verməsəm...

Yuxarıda qeyd etdiyimiz kimi, Batabat massivində həddindən artıq endemik, relikt və dərman bitkiləri mövcuddur. Məsələn, raddel laləsi, qaymaqçiçəyi, pişikotu, həmərsin, gəvən, əvəlik, yarpız, dazotu, qantəpər, kəklikotu, solmazçiçək, səhləb – hər biri can dərmanı. Elə ki bitkilər torpaqdan baş qaldırdı, faydasını bilənlər gəlib toplayar, qışa saxlamaq üçün qurudarlar. Burada, necə deyərlər, gül gülü çağırır, bülbül bülbülü. Hər gülə, çiçəyə salam verməsən, xoş üz göstərməsən, nanələr, reyhanlar inciyər səndən. Çiçəklərin ətri adamı bihuş edir. Bəzisini iyləyirsən, bəzisini toplayıb özünlə götürürsən.

Saysız-hesabsız bitkilər ərazini həm də arıçılar üçün əlverişli edib. Arıçılar təbiətin səxavətindən ehtiyatla faydalanmağa çalışırlar. Şahbuz balının dadına isə dad çatmaz, bazarlarda adı ilə tanınır.

Yolüstü öz zəhmətlərinin məhsulu olan balla yanaşı, kənd adamlarının hazırladığı və satışa çıxardığı mürəbbə və kompotlar da diqqətimizdən yayınmır. Baldırğan turşusunu çox az adam tapılar ki, xoşlamasın. Nəinki turşusunu, mürəbbəsini belə, buradan tapmaq olar. Qızılgülün, həmərsin çiçəyinin, cəvizin mürəbbəsi, tut, həmərsin doşabı, saymaqla bitməyən nemətlər. Həm qiyməti münasib, həm də cana faydalı. Yoldan ötən yolçunu həm təbiətin yetişdirdiyi, həm də insan əlinin zəhməti ilə yoğrulan nemətlər əyləyər.

Təbiətlə təmas insana rahatlıq bəxş edir, həm sağlığına, həm də zövqlü anlar yaşamasına imkan verir. Siz də yay istirahətinizi səmərəli keçirmək istəyirsinizsə, təbiətin füsunkar gözəli Batabata gəlin.

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan televiziyasının baş redaktoru***

## İkinci və üçüncü qrupların qəbul imtahanları keçirilib



*Dövlət İmtahan Mərkəzi iyulun 14-də 2017-2018-ci tədris ili üçün ikinci və üçüncü qruplar üzrə qəbul imtahanı keçirib.*

İmtahan respublikanın 11 şəhərində, ümumilikdə, 66 binada aparılıb. İmtahanların idarə olunmasına 242 imtahan rəhbəri və orta ümumtəhsil müəssisələrinin 2728 nəzarətçi-müəllimi cəlb olunub.

İmtahanda 34041 abituriyent iştirak edib. Onlardan 17888-i ikinci, 16153-ü isə üçüncü ixtisas qrupu üzrə imtahan verib. Abituriyentlərdən 31037 nəfəri Azərbaycan bölməsinin, 3004 nəfəri isə rus bölməsinin məzunudur. Onların 25741 nəfəri cari ilin orta təhsil məktəblərinin, 6903 nəfəri isə əvvəlki illərin məzunlarıdır. 176 abituriyent xarici ölkə vətəndaşıdır.

İmtahanlarda iştirak edən abituriyentlər imtahana buraxılış vərəqəsini internet vasitəsilə iyulun 8-dən etibarən əldə ediblər. Buraxılış vərəqəsi ilə yanaşı, onlara "Yaddaş kitabçası"ndan çıxarış da təqdim olunub. Burada şagirdlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılıb.

Naxçıvan şəhərində imtahanlar 1, 7 və 14 nömrəli tam orta məktəblərdə, ümumilikdə, 73 zalda keçirilib. İmtahanlarda 1577 abituriyent iştirak edib. İmtahanlara 152 nəzarətçi-müəllim, 12 rəhbər cəlb olunub.

Həmin gün "Space" telekanalında canlı yayımlanan "Abituriyent" verilişində Dövlət İmtahan Mərkəzinin məsul əməkdaşları və ekspertlər tərəfindən imtahan suallarının düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib.

Abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri 3-4 gün müddətində Dövlət İmtahan Mərkəzinin internet saytında yerləşdiriləcəkdir.

✍ **Fatma BABAYEVA**

## Boks üzrə şəhər birinciliyi

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev çıxış ediblər, iştirakçılara uğurlar arzulayıblar.

Açıq birincilikdə Naxçıvan şəhərinin, Kəngərli və Babək rayonlarının idmançıları öz güclərini sınayıblar. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 16 çəki dərəcəsində 60 dəri əlcək sahibi iştirak edib. Gərgin mübarizə şəraitində keçən qarşılaşmalarda müxtəlif çəki dərəcələrində qalib gələn idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 570